

# Könüllü döyüşçü Elmin Nəcəfov - top mərmisindən şəhid oldu...

***Saleh Nəcəfov:** "Dedi ki, hər şey yaxşı olacaq, qələbə bizimlədir"*

İgidlər gedir döyüşə,
Yol ver, yol ver bu dəstəyə...
Bir himndir, bir çağırışdır
Şəhidlərin səsi çöküb
Bu nəğməyə, bu bəstəyə.
Vətən, canım sənə qurban!

Bu nəğmə neçə-neçə igid oğulun dilində ilk kəlməyə, neçə-neçə qəhrəmanlıq dastanının baş cümləsinə çevrildi. Oğullar durna qatarı kimi cərgədə durdular. Vətənin müdafiəsinə könüllü getdi oğullar, getdilər ki, qarı düşmənin ayağını birdəfəlik ana torpaqdan kəssinlər, onların izlərini silib atsınlar. 44 günlük Vətən müharibəsinə könüllü getdi Neftçala rayon Həsənabad kəndinin sakini Saleh Nəcəfovun üç oğlunun kiçiyi olan Elmin də. Həsənabad qəhrəmanlar yetişdirən bir eldir. Vətən Müharibəsi Qəhrəmanı Camal İsmayılov bu qəsəbədə doğulub böyüyüb. Camal kimi igidləri çox olub Həsənabadın. Cəsur vətən oğlu Nəcəfov Elmin Saleh oğlu belə igidlərdən biridir.

Biləsuvar rayonunda yaradıcılıq ezamiyyətində olarkən Elminin atası Saleh Nəcəfovla söhbətləşdik. Nəzakət Məmmədovanın rəhbərlik etdyi Mədəniyyət Nazirliyi Xatirə Kitabı Redaksiyasının ərsəyə gətirdiyi "44 Gün-Tarixi zəfər" IV cildliyinin ııı və IV cildlərinin Biləsuvar rayonunda keçirilən təqdimatına Saleh ata da gəlmişdi.

Bildirək ki, Nəcəfov Elmin Saleh oğlu 30 yanvar 1999-cu ildə Neftçala rayonunun Həsənabad kəndində anadan olub. Atası Saleh dülgərdir. Saleh ata və Səidə ana üç oğul böyüdüb. Elmin üç qardaşın ən kiçiyi idi. 2005-ci ildə Həsənabad kənd Şəmsəddin Orucov adına orta məktəbdə təhsilə başlayıb və 2016-cı ildə həmin məktəbi bitirib.

Elmin Nəcəfov 31 yanvar 2017-ci il tarixdə Neftçala Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Əvvəlcə Gəncədə, sonra Qazaxda xidmət edib, baş topçu kimi qumbaraatan olub.

2018-ci il iyulun 1-də xidmətini başa vuran Elmin Nəcəfov ordudan qayıtdıqdan sonra dülgərliklə məşğul olub.

Saleh ata bildirir ki, Elminsiz keçən bu beş il sözün əsl mənasında çox ağırdır, gözləri hər yerdə onu axtarır. Ata deyir ki, Elmir çox yaxşı oğul olmaqla yanaşı, həm də vətənpərvər olub. "Əsgərliyini çəkib gəldikdən sonra mənim yanımda dülgər işləyirdi. Ata-bala işləyirdik. Müharibə başlayanda cəbhəyə könüllü getdi. Bircə dəfə




danışa bildik. Dedi ki, hər şey yaxşı olacaq, qələbə bizimlədir. Başqa heç nə danışmadı. Üç oğlumun sonuncusu idi Elmin. Elmin evlənməmişdi, subay idi. Evə-eşiyə can yandıran uşaq idi. Düzdür, məktəbdə yaxşı oxumasa da, amma tərbiyəsi, davranışı bir nümunə idi".

Saleh ata bildirir ki, Elminin qəhrəmancasına şəhid olması onlara təsəllidir. "Təsəlimiz odur ki, torpaq uğrunda şəhid olub. Düzdür, itkisinə dözmək çox çətindir..."-dedi ata.

Elmin Nəcəfov Azərbaycan Silahlı Qüvvələri tərəfindən 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi məqsədilə başlanmış İkinci Qarabağ müharibəsində iştirak edib. 29 sentyabr döyüşlərində, xüsusilə Füzuli və Cəbrayıl rayonlarının azad edilməsində könüllü iştirak edib. Müharibə dövründə taqım bölüyünə komandir təyin edilib.

Elmin Nəcəfov oktyabrın 9-da Cəbrayıl uğrunda gedən döyüşlərdə düşmən qüvvələrinin atdığı artilleriya mərmisindən şəhid olub. O, noyabrın 21-də Neftçala rayonunun Həsənabad kəndində torpağa tapşırılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi istiqamətində aparılan hərbi əməliyyatlarda iştirakına və hərbi əməliyyatlar zamanı üzərinə düşən vəzifələri şərəflə yerinə yetirdiyinə görə Nəcəfov Elmin oğlu ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.

Azərbaycan Prezidenti İlham Əliyevin 24 dekabr 2020-ci il tarixli Sərəncamı ilə Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi istiqamətində döyüşlərdə iştirakına görə Elmin Nəcəfov ölümündən sonra "Cəbrayılın azad edilməsinə görə" medalı ilə təltif edilib.

Saleh Nəcəfovun içi nə qədər acılarla dolsa da, ürəyi qubar bağlasa da, dik durmağa çalışır. Axı o, Elmin kimi bir cəsur oğulun atasıdır...

Salam, şəhid atası,
Sən necə qürurlusan.
Dağ boyda oğlun gedib
Yenə də dik durmusan.
Ağappaq saçlarından,
Nur saçılır, nur ata.
Həmişə qürurlu ol,
Həmişə dik dur, ata.

***İradə SARIYEVA***
***Biləsuvar-Bakı***